https://doi.org/10.59849/3006-1342.2025.2.77
UOT 94(479.24)

*Səbinə Qiyas qızı Əlizadə*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*Müəllim,*
*AMEA Gəncə Bölməsi*
*Elmi işçi*
*E-mail: sabina.alizade1985@mail.ru*
*ORCID ID: 0000-0001-8960-6831*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN FƏALİYYƏT SİSTEMİNDƏ NAXÇIVAN MƏSƏLƏSİ

*Məqalədə Cumhuriyyət höküməti və parlamentinin fəaliyyətində Naxçıvan məsələsinin rolu və apardığı tədbirlər faktlarla öz əksini tapmışdır. Xüsusilə bölgənin erməni özbaşınalıqlarının qarşısını almaq məqsədilə görülən tədbirlər, hərbi və mülki yardımlar,eyni zamanda Müsəlman Milli Komitəsinin Naxçıvanı qorumaq üçün apardığı mübarizə məqalənin əsas qayəsini təşkil edir. Son məqamdə əsas vurğulanan cəhət isə Naxçıvan camaatının birgə inadlı müqaviməti bölgənin ermənilərin əlinə keçə bilməməsinin əsas səbəblərindən biri kimi vurğulanmasıdır. Eyni zamanda Araz Türk Respublikasının yaradılması və Osmanlı dövlətinin bu məsələdə mövqeyi, İngiltərənin, ABŞ-ın və Rusiyanın buradakı fəaliyyəti və məqsədləri məqalənin mərkəzində duran əsas məqamlar kimi vurğulanmalıdır.*

*Açar sözlər:* Azərbaycan Xalq Cumhuriyyəti, ermənilər, Araz Türk Respublikası, naxçıvanlılar, türklər, Rusiya , İngiltərə, ABŞ

Müsəlman Şərqində ilk dəfə 1918-ci ilin mayın 28-də yaranan yeni müstəqil, demokratik milli əsaslara söykənən Azərbaycan Xalq Cümhuriyyəti çox çətin və mürəkkəb zamanda cəmi 23 ay fəaliyyət göstərə bildi. Müstəqillik dadını xalqımıza bəxş edən Cümhuriyyət əslində böyük güclərin siyasət caynağından qorunmaq üçün bütün vasitələrə əl ataraq, böyük problemlər və mücadilələr apararaq Avropa miqyasında mustəqil subyekt kimi de-fakto səviyyəsində tanınmasına nail olmuşdur.Yeni qurulan hökümət öz üzərinə götürdüyü çətin tarixi vəzifələri böyük şərəflə yerinə yetirə bildi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Demokratik və milli prinsiplərə əsaslanan maarif və mədəniyyətin inkişafı üçün görülən tədbirlər xüsusi vurğulanmalı məqamlardandır. Bu dövrdə Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü" [1, s. 34].

Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti, istər Antanta ölkələri ilə əlaqələri, istərsə də qonşu ölkələrlə münasibətləri bir sıra tarixçilər tərəfindən öyrənilmişdir. Düzdür, Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın əlaqələrindən tədqiqat əsərlərində bəhs edilsə də, məsələ bütün aydınlıqları ilə tam olaraq hələ də öyrənilməmişdir. Hətta bununla bağlı müxtəlif fikirlər və mübahisələr hələ də mövcuddur. Xüsusilə, Sovet tarixşunaslığında guya ki, Cumhuriyyət hökuməti ayrı-ayrı bölgələrin təhlükəsizliyinə biganə və laqeyd mövqe göstərmiş, həmçinin təhlükəsizliyini təmin edə bilməmişdir. Halbuki, bu yalançı uydurmalardan başqa bir şey deyildir. Azərbaycan Xalq Cümhuriyyətinin "rəhbərliyi və yerli hakimiyyət orqanları imkanları daxilində bu problemlərə diqqət yetirmiş,

torpaqlarımızın bütövlüyü və suverenlik məsələlərində daxili-xarici düşmən qüvvələrə qarşı barışmaz mövqe tutmuşlar" [3, s. 142].

Həmin illərdə Naxçıvan bölgəsi müxtəlif mənafelərin toqquşduğu, ziddiyyətlərin kəsişdiyi düyün nöqtələrindən birinə çevrilmişdi. Bu dövr əslində Naxçıvanda hakimiyyətin tez-tez dəyişiliklik illəri olmuşdur. Torpaqlarımız hesabına yaradılan Ermənistan Respublikasının yəni Araratın Naxçıvana hücumları əticəsində əhalinin xeyli hissəsi qaçqına çevrilmişdi. Bu məsələdə ABŞ, İngiltərə,Fransa, Rusiya Ermənistan Respublikasına hərtərəfli yardım göstərirdilər və Naxçıvanın tez bir zamanda Ermənistana birləşdiriləcəyi barəsində şaiyələr yayırdılar. Uydurma "Böyük Ermənistan" yaratmaq arzusu ilə yaşayan bədxah qonşularımız torpaq iddiaları ilə bağlı xüsusi bir layihə hazırlamışdılar. Çox keçmir ki, bu layihəni Ənvər paşaya təqdim etmişdilər. Layihəyə əsasən Naxçıvan və Ordubadla birlikdə Sürməli, Axalkələk, Eçmiədzin, İrəvan (qəzası), Borçalı, Qazax, Şərur-Dərələyəz, Otnabağ və Zəngəzur qəzaları Ermənistana verilməli idi [2, s.16]. Onlar bu tələbləri guya, bu ərazilərin nüfuzunun çox hissəsinin ermənilər təşkil etməsi iddialarına əsaslandırırdılar. Halbuki bu yalandan başqa bir şey deyildi. Belə ki, əslində isə Şərur-Dərələyəz qəzasında əhalinin 72,3 faizini, Naxçıvan qəzasında 62 faizini, İrəvan qəzasında 60,2 faizini, Sürməlidə 70 faizini, Qarayazıda 89 faizini azərbaycanlılar təşkil edirdi [2, s. 366]. Naxçıvan əhalisi dəfələrlə Azərbaycan Xalq Cümhuriyyətinə müraciət etsə də, beynəlxalq vəziyyət və ölkədaxili mövcud vəziyyət bir müddət bu müraciəti həyata keçirməyə imkan vermirdi.Bu cür iddialardan ruhlanan erməni daşnakları ingilislərdən yardım alaraq 1918-ci ilin yayında Culfanı ələ keçirərək şəhər və kəndləri talan edir, dinc əhalini kütləvi surətdə qırırdılar. Bu qırğınların başında duran qaniçən Andranik müttəfiq dövlətlər tərəfindən, yəni İngiltərə və Fransa tərəfindən xüsusi rəğbətlə dəstəklənirdi. Belə çətin zamanda Naxçıvan Milli Komitəsi türklərlə əlaqələri genişləndirərək, onların dəstəyini məqsədə uyğun saymışdılar. Tez bir zamanda Kazım Qarabəkir paşanın komandanlığı altında türk diviziyası strateji bölgələri ələ keçirərək, Andronikin qüvvələrini məhv etmişdir. Amma onu da vurğulamaq yerinə düşər ki, bu qələbələrdə xalq qoşun dəstələrinin rolu da az deyildir. Çox keçmir ki, Mudros barışığının şərtlərinə əsasən, Türkiyə ordusunu Naxçıvandan çıxarmalı olur. 1918-ci ilin noyabrında Araz Türk Respublikası qurulur. Bu müstəqil qurumun əsas məqsədi isə erməni özbaşınalığına son qoymaq və Cümhuriyyət hökümət ilə birləşmək idi.

Araz-Türk Respublikasının əhalisi 1 milyon nəfər, ərazisi 8,7 min kv. km olmaqla tərkibinə Naxçıvan və .Şərur-Dərələyəz qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Kəmərli, Mehri və s. bölgələr daxil idi [5, s. 33]. Respublikanın paytaxtı Naxçıvan şəhəri, hökumətin sədri isə Əmir bəy Nərimanbəyov olmuşdur. Araz-Türk Respublikasının silahlı qüvvələrinin köməyi ilə yerli əhalinin fəal müqaviməti nəticəsində Ermənistanın daşnak hökumətinin Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı. 1918-ci il dekabrın 22-də Ordubad şəhərinin və ətraf ərazinin müsəlmananlarının Milli Komitəsinin sədri Mir Hidayət Seyidzadə Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinə hər yerdə ermənilərin bütün Zəngəzura sahiblənməsi şüarlarına qarşı mübarizəyə çağıraraq bu məsələyə ciddi tədbirlərin görülməsini xahiş etmişdir.1919-cu il yanvarın 7-də Azərbaycan hökuməti Ermənistan hökumətinə nota göndərməyə məcbur oldu. Notada Azərbaycan xalqına qarşı zorakılığa son qoyulması tələb olunurdu. 1919-cu il fevralın 28-də Naxçıvan general qubernatorluğu təşkil edildi. Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski və Hacı Mehdi Bağırov onun köməkçiləri təyin olundular. General-qubernatorluğun nəzdində Şura yaradıldı [4, s. 96]. Çox keçmir ki, qubernatorluğun nümayəndələri Bakıya xüsusi missiya təşkil edilir. Əsl məqsəd bu diyarın Cümhuriyyətə birləşdirlməsi idi. Bu məsələnin qarşısını almağa çalışan ingilislər birtərəfdən guya Cümhuriyyəti müdafiə edir, digər tərəfdən bölgədə ermənilərin fəallaşmasına şərait yaradırdılar.

1919-cu ilin əvvəlində ingilislər Naxçıvanı tutaraq Araz-TürkRespublikasını, Naxçıvan Milli Komitəsini ləğv etdilər. İngilislər Naxçıvanı Ermənistanın tərkibinə daxil etmək üçün hər cür üsul və vasitələrə əl atır, fəal danışıqlar aparırdılar. Qeyd etməliyik ki, Azərbaycan Xalq Cümhuriyyəti hököməti tərəfindən Naxçıvanla əlaqələrin çətinliyini nəzərə alaraq bir qədər sonra isə Qarabağ general-qubernatorluğu nəzdində Naxçıvan bölgəsinə dair xüsusi tapşırıqlar üzrə müvəkkillik vəzifəsi yaradıldı. Səmədbəy Cəmillinski Naxçıvanın general qubernatoru təyin edildi. Səmədbəy Cəmillinskinin qərargahı əvvəlcə Ordubadda yerləşmiş, sonra isə Naxçıvana köçmüşdü [2, s. 95]. Çox keçmir ki, 1919-cu ilin ikinci yarısında Paris sülh könfransı adından çıxış edən ABŞ-m rolu kəskin surətdə artdı. Onların da Naxçıvanla bağlı mövqeyi heç də ingilislərdən seçilmirdi, yəni açıqca erməniləri müdafiə edirdilər. 1919-cu il sentyabrın 1-də Haskelin Paris sülhkonfransı adından Azərbaycan və Ermənistan hökumətlərinə göndərdiyi "Naxçıvan və Şərur Dərələyəz qəzaları haqqında əsasnamə xüsusi diqqət doğuran məqamlardandır. Əsasnaməyə görə, Naxçıvan və Şərur-Dərələyəz qəzalarını əhatə edən rayonlar bitərəf zona elan edilir və bura da bütün idarəçilik işləri Amerika general-qubernatorluğuna tapşırılırdı [1, s. 300- 301].

Azərbaycan höküməti  bölgədə qubernatorluğun yaradılmasının əleyhinə deyildi,çünki ən azından qırğınların qarşısı alına və erməni özbaşınalığı səngiyə bilərdi. Amma onu da qeyd etmək lazımdır ki, hökümətin qubernator Haskelin qarşısına qoyduğu tələblər çox təqdirəlayiq və diqqət çəkən məqamlardandır. Xüsusən, seçkilər keçirilənə qədər general-qubernator Azərbaycandan iki məsləhətçi dəvət edib onların köməyi ilə qayda-qanun yaradılmalı, neytral zonadan Bakı-Culfa dəmiryolunun keçdiyi xüsusi zolaq ayrılıb, Azərbavcan hökumətinə verilməli, general-qubernatorluq əhalini tərksilah etməməli, general qubernatorluğun bütün ərazisində amnistiya keçirilməli idi [5, s. 67]. Lakin,Haskel Azərbaycan tərəfindən təqdim edilən layihəni qəbul etmədi. 1919-cu il oktyabrın 22-də Bakıda AXC-nin rəsmi orqanı olan "Azərbaycan" qəzetində Naxçıvanda ABŞ polkovniki Edmund Delli başda olmaqla Amerika general-qubernatorluğunun təşkil olunması haqqında əsasnamə dərc edildi [5, s. 111]. Noyabr ayına qədər nə qədər cəhdlər olmasına baxmayaraq, general qubernatorluq yaradıla bilmədi. Missiya nəticəsiz qaldı və süquta uğradı. Bundan istifadə edən ermənilər quldurları 1919-ci ilin sonlarında bölgədə yenidən fəallaşdılar. Bu zaman Naxçıvan Milli Komitəsi ilə qanlı vuruşmalar başlandı. Amerikalılardan yardım alan daşnak Ermənistanı 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün yeni cəhd göstərdikdə, diyarın müdafiəçilərinin vəziyyəti xeyli mürəkkəbləşdi. Azərbaycan Xalq Cümhuriyyətinin həmin zamanda siyasi böhranın dərinləşməsi Naxçıvana hərbi yardım göstərilməsini çətinləşdirdi. Nəticə etibarilə Naxçıvan rəhbərliyi kömək üçün türklərə müraciət etməli oldu. Erməni qırğınından xilas etmək üçün türklərin köməyinə ehtiyac duyulurdu.Elə bunun nəticəsi idi ki, 1920-ci ilin martında Əli Teymurbəy başda olmaqla yeni türk qoşun hissəsinin Naxçıvana gəlməsi əhali tərəfindən böyük şadlıqla qarşılandı [4, s. 84, 96]. Sonrakı hadisələrə nəzər yetirsək görərik ki, bu cür tədbirlər Naxçıvan əhalisini yeni qırğınlardan xilas edərək Naxçıvanın sonrakı taleyinə müsbət təsir göstərmişdir. Ümumiyyətlə, Naxçıvan əhalisinin bu cür inadlı müqaviməti və mübarizəsi onun məhz Azərbaycan dövlətinin tərkibində muxtariyyət əldə etməsində əhəmiyyətli rol oynamışdır. Burada Cümhuriyyətin rolu və yeri birmənalı olaraq əvəzolunmazdır. Cümhuriyyət hər cür vasitələrdən istifadə edərək, Naxçıvanın itirilməsinə və ermənilər tərəfindən işğal edilməsinə yol verməmişdir. Bütün əldə olunan nəticələr isə xalq və hökümət birliyinin və bərabərliyinin ümümi nəticəsi idi. 1921-ci ilin martında və oktyabrında imzalanan Moskva və Qars müqavilələri bu ittifaqın nəticəsinin gələcəkdə Azərbaycanın xeyrinə həll olunmasına rəvac verən əsas amil kimi qiymətləndirsək tam yerinə düşər. Hər iki beynəlxalq əhəmiyyətə malik olan müqavilələrin əsasında məhz Naxçıvanın, yalnız Azərbaycanın tərkibində qalması iddiası tam olaraq öz əksini tapmışdır. Bu gün bu qədim

oğuz yurdu, qəhrəmanlar diyarı doğma Naxçıvanımız Müstəqil Azərbaycanımızın tərkibində günügündən gözəlləşir və inkişaf edir.

ƏDƏBİYYAT

1. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку: Элм, 1998, 616 с. 14 с.
2. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı: Garisma MMC, 2009, 576 s.
3. Малахов Г. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР. Баку, 1968, 188 с.
4. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.
5. Naxçıvan Muxtar Respublikası. Naxçıvan tarixi atlası. Bakı: Elm, 2001, 220 s.

УДК 94(479.24)

*Сабина Гияс кызы Ализаде*
*Азербайджанский Государственный Аграрный Университет,*
*Гянджинский филиал НАНА*

НАХЧЫВАНСКИЙ ВОПРОС В СИСТЕМЕ ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджанская Народная Республика, армяне, Аразская Тюркская Республика, нахчыванцы, турки, Россия, Англия, США

В статье на основе фактов отражена роль Нахчыванского вопроса в деятельности правительства и парламента республики и принимаемые им меры. Основное внимание в статье уделяется мерам, принятым для предотвращения армянских зверств в регионе, военной и гражданской помощи, а также борьбе Мусульманского национального комитета по защите Нахчывана. Главный аспект, подчеркнутый в последнем абзаце, заключается в том, что совместное упорное сопротивление народа Нахичевани подчеркивается как одна из главных причин, по которой регион не попал в руки армян. При этом в качестве основных моментов, находящихся в центре статьи, следует выделить создание Аразской Турецкой Республики и позицию Османского государства по этому вопросу, а также деятельность и цели Англии, США и России в этом регионе.

UDC 94(479.24)

*Sabina Giyas Alizade*
*Azerbaijan State Agricultural University*
*Ganja Branch of ANAS*

NAKHCHIVAN ISSUE IN THE SYSTEM OF ACTIVITIES OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC
*SUMMARY*

*Key words:* Azerbaijan Democratic Republic, armenians, Araz Turk Republic, Nakhchivan, Turks, Russia, England, USA

The article reflects the role of the Nakhchivan issue in the activities of the government and parliament of the Azerbaijan Democratic Republic and the measures taken based on facts. The article focuses on the measures taken to prevent Armenian atrocities in the region, military and civil assistance, as well as the struggle of the Muslim National Committee for the Defense of Nakhchivan. The main point highlighted in the last paragraph is that the joint stubborn resistance of the people of Nakhichevan is emphasized as one of the main reasons why the region did not fall into the hands of the armenians. In this regard, the main points in the center of the article are the creation of the Araz Turk Republic and the position of the Ottoman state on this issue, as well as the activities and goals of England, the USA and Russia in this region.

***Daxil oldu: 03.06.2025-ci il***